Həyat fəlsəfəsi

FİLOSOF VƏ ŞAİR

Filosof

Şair filosof tək durub, düşünüb,
Uzaq üfüqləri görsə yaxşıdır.

Şair

Filosof dostlar da hor müddəanı,
Şeriyyət diliylə versə yaxşıdır.

Filosof

Həyat öyrəndikcə şair özgəyə,
Dərsini həyatdan alsa yaxşıdır.

Şair

Filosoflar dönüb şair olunca
Şairlər filosof olsa yaxşıdır.

Müəllif

Yox, yox! Əzizlərim əbəs yerə siz
Mətləbi uzadıb səhv edirsiniz.
Cəbhə bir olduqda, yol bir olduqda,
Bunlar bir-birinə tamam oxşayır,
Dünyanı, insanı dərk edən, sevən
Şair filosofdur, filosof şair.

1976

XEYİRSİZ OLUR

Ömrümüz əbədi həyatdır, onun
Maddi, mənəvi dünyası vardır.
Baxır, sonsuzluğa baxa bilməyir,
Hər kimin başına bu dünya dardır.

Yaşamaq, yaşatmaq mübarizədir,
Budur məhək daşı işin, zəhmətin,
Fəlsəfi fikirlər, səyyar xəyallar
Qartal qanadıdır şerin, sənətin.

Lakin quru sözə, ehkama dönür.
No zaman fikirlor şcirsiz olur.
Cəmiyyətdən uzaq, həyatdan uzaq
Uydurma fəlsəfə xeyirsiz olur.

1974

YENİDƏN DOĞULACAQDIR

Mübahisə edir iki filosof –
Hansı düz büyurur, hansı cəhl edir?
Bir dünyalıq işdir şərhi dünyanın,
Gəl baş tap bunların hansı haqlıdır?
– Əbədi hərəkət məqbulsa əgər,
Əbədi sükunət gəzmək nahaqdır!
– Dünyada nə varsa yoxluğa məhkum,
Nə yoxsa – yenidən doğulacaqdır...

1974

SÖYKƏNSƏ

Öz işini sevir candan,
Usta utanmaz heç zaman,
Bina uçmaz, iki yandan
Kərən dirəyə söykənsə.

Bir gün dara düşsə əgər,
Çıxar dardan müzəffər –
Məğlub olmaz qoç igidlər
Kürək kürəyə söykənsə.

Sən bizdə bir qismət kəssən,
Mən sizdə bir qismət kəssəm.
Nemət itməz onu bil sən,
Çörək çörəyə söykənsə.

Qalmayacaq yüz al, min al,
Nə zər, qızıl, nə dövlət, mal,
Ad-san yaşar, əgər halal
İşə, əməyə söykənsə.

Qaladır möhkəm divarlı,
Qoşa dağdır başı qarlı –
Sədaqətli, etibarlı –
Ürək ürəyə söykənsə.

1976

SAHİLDƏ

Onu mən tərif etdim,
Sözümüz tutmadı, yox,
Bir an gülümsəmədi,
Bu gün üzü bozdur çox.

Uçdu dəli dalğalar,
Ürəyimcə axmadı.
Mən hey dənizə baxdım,
Dəniz mənə baxmadı.

Lakin qulaqlarımda
Danışırdı dalğalar.
Mən aydın eşidirdim,
Edə bilmərəm inkar:

– Seyr etmək sahilləri
Şair, asandır, asan!
Ancaq buruqlara sən
Çox uzaqdan baxırsan...

1977

TORPAQ DA, DAŞ DA

İstərdik bizim müdir
İşdə tələbkar olsun!

Lakin işgüzarlara
İnam, etibar olsun.
Eşitmiş olsanız da
Bu sözlər olmaz hədər.
Hər bir yaxşı işçini
İstərdik ki, müdirlər
Qayğı ilə işlədə,
Qayğı ilə yaşada.
İndi qayğı lazımdır
Torpağa da, daşa da.

1978

BİR FİLOSOFA

Hər fikri sözlərdir ifadə edən,
Məna, məzmun deyil istilah, lakin
Fəlsəfə deyildir, cənab filosof,
Yalnız terminlərdir sənin bildiyin.

Hər elmin dayağı, bünövrə daşı –
Həyati təcrübə bilikdir, bilik!
Bir əsl fəlsəfə elmi var, bir də
Uydurma, qondarma, fəlsəfəçilik.

1976

ƏBƏSDİR

Azan sosi gələndə
Elə bilirdik o vaxt
O ilahi bir səsdir.
Nənəm – "Allahü əkbər" –
Deyərkən zənn edərdim
Əkbər canlı bir kosdir.

Birini "allah" etmək
Tələbidir zamanın –
Demə sadə həvəsdir

Allahdan insan olmaz,
Eləcə də adamı
Allah etmək əbəsdir.

1977

GÖRÜNMÜR

I

Haldan-hala düşür rəngi dünyanın –
Müəyyən geyimi-donu görünmür.
"İbtida", "intiha" gəzmə ki, onun
"Əvvəli" görünmür, "sonu" görünmür.

II

"Dünya əbədidir" deyirik, lakin
Bilmirik sirrini "əzəlin", "sonun"
Əgər ibtidası varsa varlığın,
Mütləq intəhası olacaq onun!..

1976

EHTİYAT

Adam bəzən təhlükəni
öncə bilməyir,
O yerdə ki, heç bir qorxu
gözlənilməyir,
Orda daha ehtiyatlı,
sərvaxt ol ki, sən
Əksər halda xəta gəlir
gözlənilmədən...

1976

TƏZYİQLƏR

Hər adamda təzyiqin
Müxtəlifdir səbəbi.
Biri dincdir xəstənin,
Digəri çox əsəbi...
Həkim yerdə yoxladı,
Dedi: – Təzyiqi çoxdur,
Gərək yatıb dincələ
Başqa əlacı yoxdur...

Verdiyi əlborcunu
Almağa gələn qoca
Yanında duranlara
Söyləyirdi astaca:
– Həkim tanımayır heç,
Bilmir həmin adamı.
Yaxşı tanıyıram mən,
Onu tanıyır hamı.

Bilirsinizmi niyə?
Artıqdır qan təzyiqi?
Çünki o yalançının
Yoxdur vicdan təzyiqi...

1978

KİMİN BAŞI, KİMİN DAŞI

(Həkimin söhbətindən)

Kimin otuzunda ağarır başı,
Ömrünə qəsd edib vaxtsız, o naşı.
Kimin qırx beşində ağarır başı,
Nə süd-qatıq yeir o, nə də süd aşı.
Kimin əllisində ağarır başı,
Qohumun, qonşunun ağırdır daşı...
Kimin altmışında ağarır başı,
Daraşıb başına qohum-qardaşı.
Kimin yetmişində qaradır başı
Onu çox istəyir ömür yoldaşı.

1976

MÖHKƏM VURUN

Az deyil işgüzar, qayğıkeş insan
Xalqının içində olub hər zaman.
İşçi əməyinə hörmət edənlər,
Lakin tanınmamış cənablar da var –
"Sabah, sabah!.." deyib başdan edənlər.

Elə ki, gördünüz kobud, bürokrat,
"Alır dəstə-dəstə, yığışır qat-qat".
O vaxt cəsarətlə, əzm ilə durun,
Sizə dirsəyini göstərəndə o
Əyri biləyinə çox möhkəm vurun!

1981

DÜNYADIR

Biri tərəzidə nəyi var, çəkir,
Birinin başını yorur min fikir,
Biri gözü yolda intizar çəkir,
İntizarlı, intizarsız dünyadır.

Yerlər var ki, müdam qardır, yağışdır,
Bilmək olmur o bahardır, ya qışdır.
Deyirlər ki, yanlış da bir naxışdır
Harda qarlı, harda qarsız dünyadır.

Kim satır, kim alır, ondan qazanır,
Kim zərərə düşür, alışıb yanır.
Alveri çox təmiz bir sənət sanır,
Kimə karlı, kimə karsız dünyadır.

Hər ölkədə müxtəlifdir məzəndə,
Günah nə səndədir, nə də ki məndə
Qazanan da deyir, mal itirəndə
Kimə varlı, kimə varsız dünyadır,

Biri qonşusuyla olur canhacan,
Biri qohumlardan qaçır çox zaman.
Mini gileylənib deyir-tanışdan
Etibarlı, etibarsız dünyadır.

1983

SƏBƏBSİZ YARANAN

İnam, etiqadla yaşayanlar var,
Bəxtəvər başına o insanların...
Deyirlər dünyanı yaradan olmuş –
Budur etiqadı inananların.

Dəlili, isbatı öz ürəyindədir,
İstər heç inanma, istərsə inan.
Nə bir səbəb axtar, nə də səbəbkar
Səbəbsiz yaranıb yoxdan yaranan.

1977

HANSINIZ QIZDIR

Görürəm axşamları,
Sahildə gəzəndə siz.
Lap eyni qafiyədə,
Eyni geyimdəsiniz.
Ayırd edə bilmirəm,
Bağışlayın cavanlar,
Məni əfv etmək olar...
Saçlarınız uzanıb
Durur kəmər yerində.
Çiçəklər səpilibdir
Tellərin üzərində
Güman edirəm ki, heç
Məndən inciməzsiniz...
Dönə-dönə onlardan
İzin istədim, izin.
Deyin hansınız oğlan,
Hansınız qızdır sizin?

1981

DOLUR EV-EŞİYİ

Biri dəvət etdi... getdim nə olar...
Baxdım, çox zəngindir, doludur evi
Əfqanın qumaşı, hindin şalıyla.

Oraq gəzdirəndən, çəkic tutandan
O bir damla belə, üstün deyildir
Öz elmi, öz ağlı, öz kamalıyla.

Bəs hansı yollarla, siz deyin, dostlar,
Dünyadan xəbəri olmayan kəsin
Dolur ev-eşiyi dünya malıyla?..

1977

YALANÇI ETİQADLAR

Sən ağ deyən zaman o deyir qara,
Hər kəsin öz gözü, öz eynəyi var.
Bu dünyanı hər kəs bir cürə görür -
Müvafiq olmayır çox vaxt baxışlar.

O kimdir bir çörək ağacı etmiş,
Hərdən bir "Əmməni", bir də "Yasini",
Alan da, yeyən də özüdür, ancaq
Heç elə verməyir öz yaxasını.

Hərçəndi hünəri özündə görür,
Məftundur şöhrətə, dövlətə, ada.
Çətinə düşəndə, "qadir qüvvə"nin
Ayağına yazır nə var dünyada...

1974

MÜDRİK QOCA DEYİRDİ

Dünyanın bir sirri bəllidir bizə
Qanunu əbədi, hökmü qətidir.
İndi əbədiyyət gəzmək əbəsdir
Əbədiyyət özü müvəqqətidir.

1978

ƏCƏL BİRDƏN GƏLİR

Murada, məqsədə, yetişmək üçün
Günlər azlıq edir, ömür yetməyir...
Nə qapını döyür, nə pəncərəni
"Əcəl" birdən gəlir, xəbər etməyir.

Əbədi deyilsən... qafil olma heç,
Bugünə bir iş gör, sabaha tədbir...
Axşam işlərini səliqəyə sal,

Borcunu, xərcini xatırla bir-bir,
Səhər açılana, günəş doğana
Kim ölə, kim qala bilmək çətindir,
Bugünə bir iş gör, sabaha tədbir...

1977

MÖHTAC OLARSAN

Çörəyi qarnına yeyirsən, düzdür,
Lakin əfv edilməz günahın, ey dost,
Sən onu başından aşağı tutsan.
Unutma, bu hökmü xatırla, müdam:
Bütün nemətlərə möhtac olarsan,
Yediyin çörəyi bir an unutsan.

1974

UNUTDUQ

(*Məsləhətçilərə*)

Cavanlarla məşğul olduq sübhi-şam,
Yad etmədik, qocaları unutduq.
Çox dərin vurduq etibardan, heyif ki,
Sədaqəti, etibarı unutduq.

1975

ZARAFAT

Aramızdan tək bircə
Səsli-küylü, maşınlı
Ensiz şose yol keçir,
Sanki sərhəddir küçə,
Bu məhləni elə bil
O yol ortadan biçir.

Elmin, fənnin əliylə
Alimlər körpü saldı
Yerdən ulduza, aya.
Körpü sala bilmədik
Biz bu taydan o taya,
Siz o taydan bu taya.

1974

SƏĞİR "NUN"

Dilimizdə bir səs vardı bir zaman –
"Nun" deyirdik ona, bizlər, səğir "nun".
– "A" – kimi, "o" kimi aydın deyildi –
Səsi alçaq idi bir azca onun.

Səsin, seçilməyir başqa səslərdən
Oğul, öz nəfəsin, öz səsin olsun!
Belə getsə, bala, itib-batarsan
Necə ki axırda itdi səğir "nun".

1977

TALE NƏDİR?

Hər kəsin taleyi öz əlindədir,
Bunu xatırlayaq gərək biz müdam.
Özü yaradandır, özü qurandır,
Bu həyatda hər bir işgüzar adam.

Köməyi hər zaman ondan umursan,
Deyirsən, qadirdir, vahiddir, təkdir.
Gözləmə ki, sənin əyri işini,
Gəlib fələk özü düzəldəcəkdir.

Yaxşı işimizlə düzəlir bizim
Olan səhvimiz də, "günahımız" da,
Daha fələklərdən kömək ummuruq,
Bəndəmiz də bizik, allahımız da...

1977

AYAĞINDAN DƏYİR...

Cavanam deyirsən, mənə nə var ki,
Vaxt olur soyuqda çimirəm göldə.
Qışda tar bağlamış qarın üstündə,
Bəzən ayaqyalın gəzirəm çöldə.

İstərsən cavan ol, istərsən qoca,
Canına qulaq as, baxma yaşına.
Atalar demişdir, bəzən adamın
Ayağından dəyir soyuq başına.

1977

YEDƏKLƏMƏYİN

Üroyimdə çoxdan bir nisgilim var,
Sizlərə aiddir sözüm, sizlərə.
Ehtiyatlı olun, əqililər də,
Bəzən qoşulurlar əqilsizlərə...
Qoruyun, insani sifətləri siz,
Heç vaxt alçalmayın, heç vaxt etməyin.
Cilovdarı olun hər ilin, ayın,
Daim yedəkləyin, yedəkləməyin.

1976

QALIR

Çalış, qalma ayaqdan
Əzəl ayaqdan qalan,
Sonra da əldən qalır.
Hərəkət et, sübhi-şam
Əldən-ayaqdan qalan,
Nəhayət, dildən qalır,
Həmişə birlikdə ol,
Qaynayıb qarışmayan
Obadan, eldən qalır.

1975

SINAQ

Xeyirxahlıq bizim ata-babanın
Ocağından, oylağından çıxıbdır.
"Hər şeyin təzəsi, dostun köhnəsi" –
Bu qızıldır, Şahdağından çıxıbdır.

Təzə dostu yaxşı sına, o səni
Dönə-dönə yandırıbdır, yaxıbdır.
Köhnə dostu gərək deyil yoxlamaq,
O, illərin sınağından çıxıbdır.

1977

REDAKTOR VƏ OXUCU

("Elm və həyat" jurnalının oxucularından)

Redaktor: – Çox sevindim, bilirəm,
Alıb bizim jurnalı.
Sən elmdən, həyatdan
Oxuyub oldun halı.
Oxucu: – Almağına almışam,
Baxmamışam hələ heç,
Başım qarışıq olub,
Dostum, günahımdan keç!
Hər gün toyda, nişanda...
Gözüm açılmayır bir,
Təmtəraqlı büsatdan.
Kefdən qala bilmirəm,
Nə "elm"dən halıyam,
Nə də sizin "həyatdan".

1977

SABİRİ ANDIM

Əyləşib qapıda-günəqarşıda
Qohumlar, qonşular söhbət edirlər...
Elin söhbətini, elin dərdini.
Özündən eşitmək deyildir hədər.

Baxırsan, sözləri çəpləşir, bəzən,
Yaxın qohum-qonşu olsa da bunlar.
Bir sayaq deyildir adamlar, burda,
Əliəyri də var, sözü düz də var.

– Deyirəm oğrudur, oğrunu tanı! –
Apardı, gözümlə gördüm heyvanı...
– Çox da ki, görmüsən, sübutun hanı?
Görmək işə keçmir, göz işə keçmir.

– Qaynar bulaqlardır bədənimdə tər,
Harayım heç sənə etməyir əsər...
– Yanır qaz tonqalı – yanır üfüqlər,
Odunu kül basıb, köz işə keçmir.

– Gördün bir məhlədə yoxdur hörmətin,
Əbəsdir təvəqqən, boşdur minnətin.
Anlamaz yanında sözün-söhbətin,
Minməz məzəndəyə, söz işə keçmir.

– Yaxşı gətirmədi işlərin bu qış,
Görünür ki, səni tutubdur qarğış;
– Neynəyim, beş mindən, on mindən, danış,
Əlli işə keçmir, yüz işə keçmir.

Boğazın kəndirə keçdimi sabah,
İstər lap vəzir ol, istər şahənşah,
Yetməz harayına nə aman, nə ah,
Qərq oldun dəryada, üz, işə keçmir...

Mən, həm qozəbləndim bu adamlara,
Həm də, bəzisinin halına yandım.
Hanı, hanı dedim, süngü tək qələm?
Sabiri düşündüm, Sabiri andım...

1976

"PTİÇKA" QUŞ DEMƏKDİR

Yaxşı bilirsiniz ki,
Ptiçka ya quşcuğaz,
Ya da ki, quş deməkdir.
Quş uçmasa yaşamaz,
Qanadı var, qolu var,
Quş da uçuş deməkdir.

Müdir düşündü dərin;
Balaca tədbirlərin,
Qaraca tədbirlərin,
Alaca tədbirlərin,
Önünə bircə-bircə,
Yaraşıqlı quşları,
Ptiçkaları düzdü.
Bir varaqda baxırsan,
Ptiçka beş-on deyil,
Ptiçka bəlkə yüzdü.

Quşcuğazlar böyüdü,
Göründü lap uzaqdan.
Lakin faydalı bir iş,
Görülmədi o vaxtdan.

İstiləşdi havalar,
Qış günü yaza döndü.
Quşcuğazın hər biri,
Böyüyüb qaza döndü.

İllər, aylar dolandı,
Nə vardı müdir yedi.
Canı çıxsın quşların,
Quşlar ac durar, dedi.

Müdirin öz qarnı tox,
Lakin yem anbarı boş.
Dənliyində dəni yox,
Nə qədər ac qalar quş?!

Daha qala bilmədi,
Ptiçka uçdu getdi,
"Tədbirlər"i götürüb
Havaya uçdu getdi...

1974

QUŞCUĞAZ

Bəzən yumur gözünü,
Elə bil sayıqlayır.
Məlum deyil səbəbi,
Gah gülür, gah ağlayır.
İyirmi altı olar
Bəlkə bir az da çoxdur
Həmən oğlanın yaşı.
Həmişə dəmdir "yazıq".
Atasının pulundan,
Onun açılmır başı.
Bədəndən pis deyil heç,
Ağıldan kəmdir bir az,
Tapın hansı yuvanın
Quşudur o quşcuğaz?

1978

XOŞ GƏLİR

İstər məni danlayın,
İstər söyün, nə danım,
Xoşlamıram bu halı –
Kirpikləri calaqlı,
Gözlərinin göyərmiş
Altı, üstü boyalı
Xanımları sevmirəm.
Görməyəndə onları,
Barı gözüm dincəlir.
İndi "çirkinlər" mənə
Bu qondarma, bu süni
"gözəllərdən" xoş gəlir.

1975

VAR

Söz bazarı kasad deyil –
Satan da var, alan da var...
"Ay müştəri, ucuzdu gəl"!
Deyib səs-küy salan da var.

Sevməsən də, oxucu, döz!
Sən mənadan əlini üz!
Əsərində bircə düz söz,
Varsa, min bir yalan da var.

Qeybət edən ondan-bundan,
Ara vuran, böhtan atan,
Ucuz alan, baha satan,
Əli əyri olan da var.

Qibləyə tutub üzünü,
Göylərə dikib gözünü,
Şöhrət üçün tez özünü
Oda, közə salan da var.

Lakin bircə ona şadam:
Çoxdur eldə yaxşı adam –
Öz canından keçib, müdam
El dərdinə qalan da var.

DƏRD ÇƏKİR

Əyni cırıq-cırıq, yamaq-yamaqdır,
Gəzir başıaçıq, ayağıyalın.
Üzdən tanıyıram, lakin adını
Bilmirəm...özündən siz xəbər alın.

Əsnəyir, aramsız üşüdükcə o,
"Ya Allah, ya imam, ya kərəm", deyir.
– Niyə bu gündəsən? – Soruşan kimi –
– Mən xalqın dərdini çəkirəm – deyir.

Guya zəngin olub-tərifləyir çox
O, köhnə əyyamı, məzhəbi, dini...
Özünün dərdini çəkə bilməyən
Necə çəkə bilər xalqın dərdini

1977

DİNCƏLMƏK İSTƏR

Biz mənalı sözlərin
Keşiyində dururuq.
Lakin söz var, onu çox –
İşlədirik, yoruruq.

Aramsız çeynənən söz
Üzdü dili, dodağı.
Təkrar yordu qələmi,
Yordu gözü, qulağı.

Həqiqətən ağırdır,
İnsaflı baxsaq əgər.
Çox da ki, yoxdur dili,
Söz də dincəlmək istər.

1978

MİLLƏT

Millətə qurban olsun
Bizim əziz canımız.
Bunu da bilək ancaq
Faydalı iş görmədən,
Millət, millət deməklə,
Millətin qarnı dolmaz.
Millət, millət deməklə,
Millət saxlamaq olmaz.

1989

CÜLLÜT

Çox qürurla cik-cik edir,
Qonub uca bir budağa.
Həm yaxına baxır tez-tez,
Həm də göz qoyur uzağa.

Nə göylərdə bir qartal var,
Nə də yerlərdə bir quzğun.
Daha nədən qorxacaqdır,
Daha nə vecinə onun.

Bircəsi də görünməyir,
Məndən sayır bütün quşlar,
Bu meşəyə hansı uçsa,
Məni görsə qanad salar.

Yanında bir yuva da var,
Çördən-çöpdən tikib bu yaz,
Elə balacadır, ona
İki-üç noxud sığışmaz.

Deyir – özüm sevməyirəm –
Heç göylərlə yoxdur aram.
Mən istəsəm qartaldan da
Yüksəklərə tez uçaram...

Siz bir baxın, o cüllütün
Çöp yuvası nə boydadır?
Görün, özü nə boydadır,
İddiası nə boydadır?..

1977

ONUN ÜRƏYİ

Ayrıdır şişmanın eşqi, həvəsi, –
Yaylağın motalı, dağın korəsi.
Kim deyər, bunları onun mədəsi
Aşırmaq, həzm etmək gücündə deyil?

O deyir: – Çalışmaq olmaz bu qədər,
Həftədə üç saat işləsək yetər,
Yeməkdə sınanar cəsarət, hünər,
Yoxsa da əkində, biçində deyil.

Böyük qazandadır onun xörəyi,
Bilinmir haraya yeyir çörəyi.
Gəl indi inan ki, onun ürəyi,
Piyli mədəsinin içində deyil.

1978

DAYAĞI YOXDUR

– Büsbütün dəyişə bilərmiş adam,
Kişi, baxıram ki, dəyişib tamam.
Sadə adamlarla indi mehriban,

Canhacan olmağa marağı çoxdur.
Asıb-kəsən deyil qabaqkı kimi,
– Çünki qabaqkı tək dayağı yoxdur.

1977

LƏBBEH

Köməyi, əlacı yerdə axtarın,
Ummayın, göylərdən, qövsi-qüzehdən.
"Bəli, bəli..."lərə etməyin adət,
Bir lənətdən qaçın, bir də ləbbehdən.

1974

BABAMIN ÖLÇÜSÜ

Babam ölçü bilmir, çoxdan unudub,
Ömründən, günündən keçən anları.
Qoca yeddisində görməli işi,
Durub yetmişində görür onları.

1976

YOXDUR

Sən çox bədbəxt adamsan –
Belədir, etmə inkar.
Sənin nə bircə dostun,
Nə bircə düşmənin var.

1976

HƏYAT VƏ ÖLÜM

Adam var ki, yaşayacaq –
Həmişəlik ömr etməyin,
Sirrlərini bilibdir o...
İllər – ömür deyil, ancaq,
Adam da var ölümündən
Xeyli qabaq ölübdür o.

1974

AYAQ VƏ BAŞ

Baş başdır, düşünür, ayaq ayaqdır,
Ayaq hər canlıya böyük dayaqdır.
Bunların hər biri gərəkdir, gərək,
Mübahisə edən yoxdur bu haqda.

Şərhə nə ehtiyac, bilirik bunu,
Baş başda dayanır, ayaq ayaqda...
Yerini bilməyən xamdır, naşıdır –
Hər kəs öz yerini bilsə yaxşıdır.

1977

DİL VƏ DİŞ

Sənəti əzizdir sənətkar üçün,
Hər əsər elə bil oğuldur, qızdır.
Dilin hökmünü bil, dişin qədrini,
Yerinə düşməyən, söz faydasızdır.

Çox çətin olsa da yoxuşu çıxmaq,
Eniş qorxuludur, saqın enişdən!
Dilini dişinlə tut ki, demişlər:
Dava dildən düşər, xəstəlik dişdən.

1976

MODA

(*Zarafatla*)

Tənqid etmək daha modabazları
Faydasız bir işdir, hədərdir, hədər.
Söz-söhbət, təbliğat öldürə bilməz,
Modanı öldürsə, moda öldürər.

1977

QİYAFƏ-GÖRKƏM

Bir vətəndaş keçir deyək qarşından,
Qiyafəsinə bax, gör, tanı kimdir.
Görkəmi yoxdursa nə biləsən ki,
Alimdir, şairdir, yoxsa həkimdir.

Başın da olmasa yeni modada,
Bir yallı-yopallı görkəmin olsun.
Yoxsa yarıb baxan kimdir gələnin
İçində samandır, yoxsa ot, yosun?

1975

CANAVAR

Mal-qara dilini vurmaz, gövşəyər,
Onlar doymuşlarsa alafdan əgər.
Lakin boz canavar tox olduqda da,
Çöldə heyvan tapıb dağıtmaq istər.

İti, ac gözləri doymaq bilməyir,
Onun iştahası hər zaman vardır.
Qurd deyən də olur, lakin nə fərqi,
O maral deyildir, o canavardır.

Nə qurd yağı çəkin heyvanlara siz,
Nə dua gərəkdir ona, nə ovsun.
Canavar xislətli olanlar varsa,
Tapıb dişlərini çıxarın onun!..

1977

SEL

Güclü yağış yağıbdır,
Su dünyanı götürüb,
Sel bağçanı alıbdır.
Gedib alma şitili.
Qaratikan yerində
Sağ-salamat qalıbdır.

Necə olur bu tufan,
Bəs onu qoparmayır?
Sel yaxşını aparır,
Pisləri aparmayır.

İNSAN ÖMRÜ

Bəşərin hələlik böyükdür dərdi,
Biri ac yaşayır, biri harın, tox.
Yaşamaq, yaşatmaq asan deyildir,
Əsil həyat dedim, dilənçilik yox.

Xidmət etsin deyə, bizə təbiət,
Cilovlamaq gərək Arazı, Kürü.
Birini insan tək yaşatmaq üçün,
Lazımdır qüdrətli beş insan ömrü.

1975

KOTAN NƏ BİLİR Kİ...

Kotanın zənciri yoğun qayışla
Çox möhkəm bağlanıb boyunduruğa,
Qoşub öküzləri kəndli babalar,
Biri öndə gedir düşüb qabağa...

Boyunduruq, samı, bir də kotan, xış...
Günü belə keçib, ona nə yaz, qış?..
Zəncirin, samının qalıb altında,
Büküm-büküm olur, bürüşür qayış.
Sürüb öküzləri əkinçi əkir,
Kotan nə bilir ki, qayış nə çəkir?..

1976

DAŞ

Pozulubdur halı bizim qonşunun,
Başına daş dəyib, deyirlər onun.
Ona ki, daş dəyib daha soruşma
Yaxın daşı dəyib, yoxsa yad daşı?
Heç dostu düşməndən seçə bilməyir,
O gündən yazığın itib yaddaşı.

El deyib, – el sözü məhək daşıdır,
Elin dediyində heç yalan olmaz.
Yox, düşmən daşına baş dözərdi, yox!
O tənə daşıdır, onu "dost" atıb
Heç tənə daşından sağalan olmaz.

1974

OLSA YAXŞIDIR

Birisi çox söylənirdi:
Nəyə gərək bu çinarlar,
Bağda bar olsa yaxşıdır.
Bəziləri cavanların
Pis aparır özlərini,
Namus, ar olsa yaxşıdır.
Qulaqların pis eşidir,
Tənələri eşitməkdən,
Tamam kar olsa yaxşıdır.

1975

GÖZLƏRİ ACDIR...

Adam var, çox fağır, miskin görünür,
Yanıb sir-sifəti, qapqara sacdır.
Həmişə pay umur başqalarından,
Bəlkə özgələrə yazıq möhtacdır?

Adam var pulludur, varlıdır, lakin
Deyərsən yoxsuldur, çox naəlacdır.
Müdam ələ baxır... lakin ac deyil,
Onun qarnı toxdur, gözləri acdır...

1978

ADAMLAR VƏ DÜNYALAR

Baxıb dağ döşündə ağaran qara,
Mən – ağdır! – deyirəm, o deyir – qara!
Gəl bunu başa sal, yox, yox, çətindir.
Hər kəsin öz gözü, öz cynəyi var.
Hər kəs bu dünyanı bir sayaq görür,
Müvafiq olmayır bəzən baxışlar.

Birisi hünəri özündə görür,
Birisi məftundur şöhrətə, ada.
Birisi dindardır "qadir qüvvə"nin
Ayağına yazır nə var dünyada.

Mənsə, bu dünyanın öz övladıyam.
Bu torpaq mehriban, əziz, anamdır.
Babam xım daşını qoymuş, bu yurdum,
Mənim aləmimdir, mənim dünyamdır.

Duyur, hiss edirəm dövrü, dövranı,
Bilirəm bu məkan, bu zaman nədir.
Çox aydın görürəm dünyanı, çünki
Gözlüyüm gözümün düz üstündədir.

1975

YARATSIN

Özgələri dərdimizdən,
bəlkə heç halı deyil.
Yadlar gəlib bizim üçün,
tarix yazmalı deyil.
Sabahına – hər bir xalqın
gərək özü can atsın.
Öz hünəri, qüdrətiylə,
tarixini yaratsın!

1975

ÇOX OLUR

Neçə uzaq eldə, uzaq ölkədə,
"Yaxşı işləmirsən" – deyə işçinin
üstünə qışqıran, dinən çox olur.

Bəzən xeyir vermir fağır olmaq da,
Belləri yağırdır, yaxşı atların, –
çünki yorğa atı minən çox olur...

1975

"Köhnə kəndin mənzərələri" silsiləsindən

BİLMİRƏM

Müxtəlif olmuşdur insan məramı,
Müxtəlif diləklər, arzular kimi.
Ərimiş çoxunun eşqi, həvəsi,
Güneydə əriyən təzə qar kimi.

Giley-güzar etmək adət olmuşdu,
Göz qoyan olsaydı şəhərə, kəndə.
Hər kəsin, görürdün şikayəti var,
Varlı da deyinir, yoxsul düşən də.

Adam var öyünür: "Hər şey aydındır".
"Mən ərənəm" deyir, "mən ərəm" deyir.
Elə adam da var ehtiyatlıdır,
Bildiklərinə də "bilmirəm" deyir.

Adam var, əlyaxa olub həyatda,
Ağır məişətlə, qəmlə, ələmlə.
İfadə etməyə çalışıb müdam,
Bildiklərini də o "bilmirəm"lə.

Kəndli

Dünyanın işləri oyundur, oyun
Ağanındır naxır, sürü, mal, qoyun.
Yer donub, xış qırıq, ulaq təkboyun,
Bir parça yerim var, əkə bilmirəm.

Usta Qurban

İndi günlər gödək, gecələr uzun,
Zirzəmi qaranlıq... nə çörək, nə un...

Kaşanələr qurdum cənablar üçün
Özümə bir daxma tikə bilmirəm.

Çoban

Sərkar kəsdi on-on, o satdı yüz-yüz,
Ancaq elə etdi hesab çıxdı düz.
İndi lazımdırmı qumral sürüsüz,
Arıq qoç, boz erkək, təkə bilmirəm?

Arabaçı

Nə qoruqçu bilir heyvan, nə qorxu,
Görüb yoncalığı, görüb qoruğu,
Öküz sağa çəkir boyunduruğu,
Niyə sola çəkir öngə bilmirəm?

Hambal

Yük daşımaq olub hər zaman peşəm,
Neçə yoxuş çıxıb, eniş enmişəm,
Belim adət edib, çox yüklənmişəm,
Mən yükü arxamdan tökə bilmirəm.

Alverçi

Gərək şirin olsun tacirin dili,
Gəzsin qarış-qarış obanı, eli.
Qırıq tərəzimin əyilib mili,
Yüngülü mən ağır çəkə bilmirəm.

Molla Fərəc

Heç kimə demədin molla deyinir,
"Allah özü bilir, peyğəmbər bilir";
Halal xümsü-zəkat, qurbanlıq gəlir,
Nədir bircə haram tikə bilmirəm.

Qayınana

Bir acı dillinin, zəhər sözlünün,
Qarğa qanadlının, bayquş gözlünün,
Yırtılmaz üzünə bu dəf üzlünün,
Yenidən bir dəri çəkə bilmirəm.

Dərd elə deyil ki, yığasan yükə,
Baxırsan bəxtəvər camışdan yekə,
Bu gəlin məni lap gətirdi təngə,
Dərdimi açanda bükə bilmirəm.

Kəndin ağsaqqalı

Biz abad eylədik aranı, dağı,
Min yerdə qaladıq şənlik ocağı,
Nəyə gərək çıxım ixtiyar çağı
Davaya, dalaşa, cəngə bilmirəm.

Şair

Güclülər vəlvələ salır aləmə,
Qanlı faciələr gəlməz qələmə,
Ey dünya, dərdini mənə yükləmə,
Mən heç öz dərdimi çəkə bilmirəm.

1976

BİR BANKA BAL

Bir tanışım bir gün bizə,
Kiçik qabda bal göndərdi.
O gündən yükləndi mənə,
Bu dünyanın min bir dərdi.

Gərək mən yüz yerə gedəm,
Gah yaxına, gah uzağa.
Minnət üçün, hörmət üçün,
Tanış-tunuş axtarmağa...

Bir tanışım bir gün bizə,
Bircə banka bal göndərdi.
O qədər iş tapşırdı ki,
Balı zəhərə döndərdi.

1975

GÖRƏNDƏ

Özgələrdən o yağ umar, bal umar,
Çiçəklərə qonan arı görəndə.
Kişi deyil, kişilərin yanında,
Kişiləşir arvadları görəndə.

1977

ADAM VAR Kİ...

Adam var ki, çox çətindir onu tanımaq,
Qapalıdır, dənliyi tək öz mənliyi də.
Adam da var, tanıyırsan lap çoxdan, ancaq
Dostluğu da bilinməyir, düşmənliyi də.

1975

DƏRDSİZ

Nalayiq sözləri, ağır sözləri,
Heç zaman eşitmək istəməz adam.
Bunu el demişdir "Dəli utanmaz,
Sahibi utanar dəlinin müdam."

Onun dərdi çoxdur, qanmayır özü,
Yaxın dostunuzdur bəlkə də sizin.
Abır-həya bilmir, qəm, kədər bilmir,
Dərdini çəkirik, biz o "dərdsizin".

1977

YAXŞIDIR

(*Birisi deyirdi*)

Başın baş yeri var, ayağın ayaq,
Bəzən vəzifələr dəyişir ancaq.
Ətrafa baxdıqda hərlənir başın,
Bu halda bir söykü – dayaq yaxşıdır.
Düşünə bilməyən dumanlı başdan,
Yenə gəzə bilən ayaq yaxşıdır.

1976

DƏYİŞSƏN

Elə söz var qiymətlidir,
Yanılarsan əgər onu
Ağır daş-qaşa dəyişsən.

Elə baş var, yanılmazsan,
Sövdələşib əgər onu
Bir qara daşa dəyişsən.

1975

OLACAQ MÜDAM

Ayaqlar altına düşməsin gərək,
Sevsin mənliyini hər zaman adam.
Qızıldan da olsa tüpürcək qabı,
Üzü tüpürcəkli olacaq müdam.

1977

AZDIR

(*Birisi deyirdi:*)

Təbiət növbənöv yaradıb nə var,
Tanınır, seçilir məxluqat bütün.
Ağılda, kamalda, simada, sində,
Kim kimdən artıqdır, kim kimdən üstün...

Çay var, gəmi üzür, dərindir, dərin
Çay var, həm ensizdir, həm də dayazdır.
Dost-tanışım çoxdur, lakin onların
Etibar etməli, yaxşısı azdır.

1977

DƏRS ALAN

"Oxuyun, öyrənin, bilin" deməklə,
Bəlkə uşaqları bezdirir adam?..
Bəzi cavanların öyrənmək eşqi,
Həvəsi görünür azalıb tamam...

Qəzet, jurnal, kitab saysız-hesabsız,
Hamısı yoluna müntəzir, hazır...
Dərsə möhtac olan az deyil, lakin
Dərs verən çoxdursa, dərs alan azdır.

1977

ÇOMAQ ƏSƏD

Diqqət edin, göz qoyun,
Siz o çomaq Əsədə,
Təkəbbürün, lovğanın
görkəminə bir baxın.
Döyüşlərdə döyülür,
Heç vura bilməsə də,
Çiynində gəzdirir o,
yekəsini çomağın.

1975

XATIRLASINLAR

Əməyin, zəhmətin min bir növü var,
Şərh etmək çətindir bunu deməklə.
Elə hünər var ki, onun məhsulu,
Böyük başla olur, böyük əməklə.

Sözə alın təri qarışmış olsa,
Əmək unudulmaz, edilməz inkar.
Elə yaradaq ki, nəsillər bizi,
Yüz il bundan sonra xatırlasınlar.

1968

DAŞ DA DUYUR

(*Daş karxanasında*)

Polad iskənələrlə
Qayaların döşündə,
Çox şəkillər qazdınız.
Qaya dinmədi; dözdü
Siz daşların dərdini,
Qayalara yazdınız.

Daşın da öz dili var,
Dilləndi, dillənmədi.
Əyilmədi boz qaya,
O torpağa enmədi.

Yəqin ki, dillənəcək
Qaya, çəkiclə vur sən.
Onun cingiltisini,
Aydın eşidəcəksən.

Buyur, bu daş, bu da sən,
Şübhə etsən, buyur, vur
Ağrı elə duyğudur,
Ağrını daş da duyur.

1981

ŞAİR OLARAM

Birisi öz dostunun
Qüsurunu sayırdı.
Töhmət, məzəmmət edib,

Çox möhkəm danlayırdı:
– Beş yol işdən qovmuşlar.
Əgor belə işləsən,
Yenə işdən qovarlar.
– Eybi yoxdur, qovsunlar,
Bir yüngül iş tapılar.
Ağır işlərlə mənim
Düzü, heç yoxdur aram.
Yamanın yaman günü,
Gedib şair olaram.

1981

EL DƏRDİ

Bədbin olmaq yaramaz,
Səy göstərsə adamlar.
İşə, gücə alışsa,
Hər kəs öz növbəsində
Möhkəm dursa, çalışsa,
İnsanlar öz yükünü
Çəkməyə hazır olsa,
Kimsə pis günə qalmaz.
Hər bir kəs öz dərdini
Çəkməyə qadir olsa,
Elin heç dərdi olmaz.

1981

YÜNGÜL

Bir adam göstərim,
Sən ona bax gül.
Kəllədən ağırdır,
Ağıldan yüngül.

1981

O BƏXTİYARDIR

Arzunun, diləyin hüdudu yoxdur,
Varsa sonu hanı, sərhəddi hanı?
Kimi qane olur sadə çit dona,
Kimi endirməyir, zəri-zibanı.

Elə ölkələr var ağırdır həyat,
Gün-gündən bazara bahalıq düşür.
Yoxsulun belindən, acın dalından,
Nə bir gün yük düşür, nə alıq düşür.

Birinin varıdır, o yeyir, geyir,
Digəri çıl-çılpaq, həm də qarnı ac,
Kimi daxma gəzir daldalanmağa,
Kimi hökmdarlıq, zərli taxtı-tac.

Malı mülkü olan bir yol demədi:
Çox şükür, varlıyam hər şeyim vardır.
Hər kim ola bilsə varıha qane,
Mənim aləmimdə o bəxtiyardır.

1978

GÜLMƏSİN DEYƏ

Özünü dərk etmək, özünü görmək,
Bildiyimiz qədər asan deyildir.
Buyur, bir hesab et, dünyada özün,
Ömür keçirirsən, gör neçə ildir.

Qüsur axtarırıq başqalarında,
Özümüzdə nöqsan görmürük bəzən.
Sənin bir cəhətin xoşuma gəldi,
Doğrudan özünü görə bilirsən.

Düzəltdim duyduğum səhvlərimi,
Bir kimsə onları bilməsin deyə.
Əzəl özüm güldüm qüsurlarıma,
Özgələr üstümə gülməsin, deyə.

1978

DƏRDİM OLUB

Kimin arvadının, kimin ərinin,
Kimin yetim qalmış körpələrinin,
Halını düşünüb əzab çəkirəm,
Dərdi dərdim olub özgələrinin.

Çoxları da kömək gözləyir məndən,
Canım öz dərdimə yetik deyil heç, –
Yükü çox ağırdır, özüm bilirəm,
Dayanacaq yazıq ürəyim tez, gec.

1977

İNAM

Danışmaq, bəlkə də bunu hədərdir,
Bəlkə yanmamışam, yanan sönərdi.
Qapqara kömürə, külə dönərdi;
Elə zəriflərə oxşamadım mən.
Bizim dünyamıza böyük inamım,
Etiqadım oldu hələ cavankən.
Bircə həftə deyil, tək bircə gün də
Dünyada inamsız yaşamadım mən.

1977

5 Şair və təbiət

TƏBİƏTİN QANUNU

Təbiət! Sevirəm, demişəm müdam –
Sənin hikmətinə alqış, min alqış!
Yerə çiləyirsən çox səxavətlə
Yayı bolca isti, qışı qar, yağış.

Təbiət! Həm məftun, həm minnətdaram
Sənin dövlotinə, sənin varına.
Bir də ona görə çox sevirəm ki,
Sadiqsən öz möhkəm qanunlarına.

1976

QÜDRƏT

Bir iş növü deyin, göstərin ki siz
O qəlbin işi tək ağır iş olsun.
Bir motor göstərin, polad bir motor,
Yetmiş il müttəsil işləmiş olsun.

İnsan möcüzələr yaratsa belə,
Öyrənir xilqətin hər əməlindən...
Böyük təbiətin sehirkar əli,
İncədir, zərifdir insan əlindən.

Yumruq boyda ətin dözümünə bax,
Yükləsən fil dözməz onun yükünə.
"Min şükür!" deyirik, təbiətin biz,
Sonsuz qüdrətinə, böyüklüyünə!..

1976

TƏBİƏT

Sirlər dünyasıdır bu dünya başdan,
Tükənən deyildir onu deməklə...
Təbiətdən güclü, qadir, möhtəşəm,
Bir qüdrət, bir qüvvət bilmirəm hələ.

Mən ona şadam ki, hələ canlıyam,
Ayrılmaz üzvüyəm mən təbiətin.
Kim bilir, bəlkə də sirri bundadır,
Təbiətə olan bu məhəbbətin!

1976

ƏBƏDİYYƏT BƏXŞ EDİB

– Təbiətin, bilirəm
Səxavəti boldur, bol.
Daha ölüm yox mənə,
Qapımıza neçə yol
Əcəl gəlib boş gedib!
Dünya fanidir, demə,
Bunu demişlər yüz yol.
– Dostum, heç öyünmə çox,
İstər böyük alim ol,
İstər böyük bir ədib...
Gedəcəksən... bəlkə də,
Xoş baxan var üzünə...
Lakin bil, heç kəsə yox,
Dünya bircə özünə
Əbədiyyət bəxş edib...

1978